# ALLAHVERDİYEV ELBRUS HACI OĞLU



Elbrus Allahverdiyev 27 oktyabr 1958-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 18 saylı şəhər orta məktəbini bitirdikdən sonra 1976-78-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1990-cı ildə isə Orconikidze Kənd Təsərrüfatı institutunu bitirmişdir. Ali məktəbi bitirdikdən sonra Elbrus xeyli vaxt Vladiqafqazda yaşamışdır. Erməni işğalçılarının Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərə dözməyərək Elbrus Vətənə üz tutur və 17 may 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanır. Leytenant Elbrus Allahverdiyev Azərbaycan Silahlı Qüvvələri artilleriyasının ilk təşkilatçılarından olur. O, Ağdam cəbhəsində ilk artilleriya batareyasını təşkil edərək, döyüş əməliyyatlarında fəal iştirak edir. Batareya döyüşlərdən uğurla çıxır. 1992-ci ilin iyun ayında batareyanın əsasında ilk divizion yaradılır və Elbrus Allahverdiyev ona komandir təyin edilir. Divizion əməliyyatlarda qarşısına qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirir, piyadaların və döyüş maşınlarının hərəkətinə yol açırdı. Briqadanın keçirdiyi mühüm əməliyyatlarda artilleriya divizionu sərrast atəşlə düşmənin bir çox strateji əhəmiyyətli mövqelərini darmadağın edirdi, onları geri çəkilməyə məcbur edirdi. 1993-cü il iyunun 16-da, ermənilərin növbəti hücumu zamanı leytenant Elbrus Allahverdiyev divizion qərargahından bir neçə döyüşçü götürüb piyadaların köməyinə getdi. O, bu döyüşdə mərmi partlayışından ağır yaralandı. Komandiri hospitala çatdırdılar. Lakin onu xilas etmək mümkün olmadı. Evli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidenlinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə Allahverdiyev Elbrus Hacı oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülmüşdür. Gəncə şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Gəncə küçələrindən biri onun adını daşıyır.